# Şəhid ailələri və müharibə əlilləri ziyarət olunur



**HACIQABUL**

Hacıqabulda Vətən müharibəsində şəhid olmuş Şəhriyar Ağamaliyev, Mehti Şıxəliyev, Hümbət Yaqubov, Nicat Hüseynov və Turab Quliyevin ailələri ziyarət edilib.

Görüş iştirakçıları şəhid və qazilərinin sosial müdafiəsinin gücləndirilməsinin və rifah halının yaxşılaşdırılmasının Prezident İlham Əliyevin sosial siyasətinin əsas istiqamətlərindən biri olduğunu vurğulayaraq Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Heydər Əliyev Fondu vasitəsilə şəhid ailələrinə göstərdiyi qayğı, həyata keçirdiyi tədbirlərdən danışıblar.

Hacıqabul rayonunda şəhid ailələri, Qarabağ müharibəsi veteranları və əlilləri ilə vaxtaşırı görüşlər keçirilir, onların arzu və istəkləri dinlənilir.

**ŞİRVAN**

Şəhər rəhbərliyi idarə, müəssisə və təşkilatların məsul işçiləri Anım Günü ilə bağlı Vətən müharibəsi şəhidlərinin ailələrini, həmçinin müharibə əlillərini ziyarət ediblər.

Görüşlərdə şəhidlərimizin xatirələri yad edilib, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun əldə etdiyi tarixi Zəfərdən, qəhrəman Vətən övladlarının göstərdikləri şücaətlərlə dolu döyüş yollarından bəhs olunub, şəhidlik zivəsinə yüksəlmiş qəhrəman Vətən övladlarının xatirəsinin hər zaman xalqımızın qəlbində yaşayacağı vurğulanıb. Eyni zamanda ordumuz tərəfindən qanunsuz erməni silahlı dəstələrinin zərərsizləşdirilməsi, ölkəmizin Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə keçirilən lokal xarakterli antiterror tədbirlərində qazanılan uğurlardan söhbət açılıb.

Şəhidlərin ailə üzvləri və müharibə iştirakçıları göstərilən diqqət və qayğıya görə razılıqlarını ifadə ediblər.

***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 27 sentyabr (№207).- S.15.